# LERİK: TƏHSİL İŞÇİLƏRİNİN BAYRAM SEVİNCLƏRİ

**Lerik rayonunun təhsil ocaqlarında 7677 nəfər şagirdin təlim-tərbiyəsilə 1238 müəllim məşğul olur. Rayonun təhsil işçiləri müqəddəs peşə bayramını yüksək nailiyyətlərlə, yeni uğurlarla qeyd etmişlər.**



Beynəlxalq Müəllim Gününə həsr olunmuş ümumrayon tədbirində əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Lerik rayon təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov mərasimi açaraq ölkəmizdə hər il oktyabr ayının 5-də müəllimlərin öz sevimli peşə bayramlarını təntənəli şəkildə qeyd etdiklərini diqqətə çatdırmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev təhsilin inkişafına xüsusi önəm verərək bildirmişdir ki, "Uşaqlarımız yaxşı məktəbdə oxumalı və müəllimlərimiz isə yaxşı məktəbdə dərs deməlidir". Dövlətimizin təhsilə göstərdiyi yüksək qayğı ucqar dağ rayonu Lerikdə də gözəl bəhrələr verir. Son on ildə rayonda 44 məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur.

Son illər rayonun təhsil müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, müasir təhsil texnologiyalarının tətbiqinə diqqət artırılmışdır. Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması daim diqqət mərkəzindədir.

Cənab Prezidentin sərəncamı ilə hər il Beynəlxalq Müəllim Günü ərəfəsində nümunəvi işi ilə fərqlənən təhsil işçiləri təltif olunurlar. Möhtərəm Prezidentimizin 3 oktyabr 2015-ci il tarixli sərəncamı ilə Lərmərud kənd tam orta məktəbinin müəllimi Əfrəddin Abdullayev "Tərəqqi" medalına layiq görülmüşdür.

Rayonun təhsil işçiləri ölkə rəhbərinin diqqət və qayğısını yüksək qiymətləndirir və etimadı doğrultmaq üçün var qüvvə ilə çalışırlar. Əgər 5 il əvvəl ali məktəblərə qəbul olunan gənclərin sayı 40 nəfər idisə, təkcə builki məzunlardan 120 nəfər tələbə adını qazanmışdır. Ali məktəblərə qəbul imtahanlarında 5 nəfər 600-dən çox, 15 nəfər 500-dən artıq bal toplamışdır. Yüksək bal toplayanlardan 20 nəfəri qızlardır.

Təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov peşə bayramı münasibətilə rayonun pedaqoji ictimaiyyətini təbrik edərək hamıya uğurlar arzulamışdır.

Tədbirdə Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin müəllimi Brilliyant Bayramova, Lərmərud kənd tam orta məktəbinin müəllimi Əfrəddin Abdullayev, Günəşli kənd tam orta məktəbinin direktoru Qurban Ağayev, ekoloji tərbiyə və təcrübəçilik mərkəzinin direktoru Araz Qurbanov çıxış edərək təhsilin inkişafına göstərilən dövlət qayğısından, qazanılmış uğurlardan danışmışlar.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov təhsil işçilərinə səmimi bayram təbriklərini çatdırmış, əsası ulu öndər tərəfindən qoyulmuş təhsil siyasətinin möhtərəm Prezidentimizin rəhbərliyilə uğurla davam etdirildiyini, rayonda təhsil sahəsində sevindirici nailiyyətlərin əldə olunduğunu bildirmişdir.

Sonra təhsil sahəsində səmərəli fəaliyyət göstərən müəllimlərin bir qrupuna Lerik Rayon İcra Hakimiyyətinin və təhsil şöbəsinin Fəxri fərmanları və hədiyyələr təqdim olunmuşdur.

Rayonun mədəniyyət işçiləri tədbir iştirakçılarına mahnı çələngi təqdim etmişlər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**